**“Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 348; 1999, 11, maddə 609; 2000, 11, maddə 776; 2001, 9, maddə 576, 12, maddələr 733, 736; 2002, 12, maddə 706; 2004, 7, maddə 505, 12, maddə 976; 2005, 1, maddə 2, 12, maddə 1082; 2006, 11, maddə 923, 12, maddə 1018; 2007, 1, maddə 4, 12, maddə 1193; 2008, 2, maddə 49, 4, maddə 254, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 970; 2010, 4, maddə 276, 11, maddə 949; 2011, 10, maddə 883; 2013, 11, maddə 1284, 12, maddə 1487; 2014, 10, maddə 1171; 2016, 4, maddə 657, 6, maddə 971; 2017, 3, maddə 336, 7, maddə 1279; 2018, 3, maddələr 369, 396, 5, maddələr 870, 894; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanunu) 18-ci maddəsində on birinci abzas on ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

“sosial sığorta sahəsində elektron xidmətləri (məcburi sosial sığorta haqlarının hesablanması və ödənilməsi istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirir;”.

**Maddə 2.** “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 11, maddə 1005; 2008, 6, maddə 474, 7, maddə 602; 2015, 3, maddə 257; 2018, 5, maddə 871) aşağıdakı məzmunda 6.3-cü maddə əlavə edilsin:

“6.3. Sosial yardımın alınması ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 3.** “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 2, maddə 76; 2007, 10, maddə 933; 2008, 6, maddələr 464, 475; 2013, 1, maddə 19, 6, maddə 618, 11, maddələr 1240, 1306; 2017, 7, maddə 1278; 2018, 3, maddə 400, 5, maddə 869) aşağıdakı məzmunda 10.1-1-ci maddə əlavə edilsin:

“Müavinətlərin təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**Maddə 4.** “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 3, maddə 208, 12, maddə 1019; 2007, 12, maddə 1194; 2008, 4, maddə 254, 6, maddə 464, 7, maddə 602, 8, maddələr 699, 710; 2009, 6, maddələr 395, 399, 11, maddələr 877, 879; 2010, 7, maddə 579; 2011, 4, maddə 267, 6, maddə 465, 7, maddə 597, 12, maddə 1109; 2012, 11, maddələr 1037, 1044; 2013, 3, maddə 223, 5, maddə 485, 6, maddələr 608, 614; 2015, 5, maddə 494; 2017, 5, maddə 676, 7, maddə 1289, 10, maddə 1776, 12 (I kitab), maddə 2193; 2018, 5, maddə 865; Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 30.1-1-ci və 31.1-1-ci maddələr əlavə edilsin:

“30.1-1. Əmək pensiyalarının təyin edilməsi ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

31.1-1. Bu Qanunun 31.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq əmək pensiyalarının avtomatlaşdırılmış qaydada təyinatı müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2019-cu il
1482-VQD